## 2018-ci il xarici səyahətçilərin sayında cüzi artımla olsa belə, müvəffəqiyyətlə sona çatdı

Dövlət Sərhəd Xidmətindən əldə edilən məlumata görə 2017-ci ilin analoji dövrü ilə müqayisədə dekabrda Azərbaycana səfər etmiş xarici vətəndaşların sayı təxminən 1% artıb. Hər birindən 60 min qonaq olmaqla Rusiya Federasiyası və Gürcüstandan gələn səyahətçilər ümumi olaraq əcnəbilərin 56%-ni təşkil edib. Rusiyadan gələn səyahətçilərin sayı 3% azalsa da, gürcüstanlı qonaqların sayı 2017-ci ilin eyni dövrünə nisbətdə 21% artıb. Asiyadan gələnlərin sayı isə 38% olmaqla əhəmiyyətli dərəcədə artıb. Sürətlə böyüyən Hindistan və Pakistan bazarlarında uyğun olaraq 126% və 105% artım müşahidə olunub. İran, Yaxın Şərq və Türkiyədən gələnlərin sayında isə müvafiq olaraq, 38%, 4% və 8% azalma nəzərə çarpıb. Bu dəyişikliklər bütün il boyu davam edən tendensiyalara cavab verir.

**Qrafik 2: 2017 və 2018-ci ilin dekabr ayında 6 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2018-ci ildə ümumilikdə Azərbaycanı ziyarət etmiş xarici vətəndaşların sayı 2017-ci illə müqayisədə 153 min və ya 6% artaraq 2,8 milyona çatıb. Ölkə turizminin səyahətçi sayına görə ən böyük paylarına malik olaraq Rusiya (31%), Gürcüstan (21%) və Yaxın Şərq (13%) ümumi səyahətçi axınının üçdə ikisini təşkil edib. Gürcüstan, Yaxın Şərq və Asiya bazar paylarını müvafiq olaraq, 1%, 2% və 2% olmaqla bir qədər artırıblar. Rusiya və Türkiyə hər biri bazar payını təxminən 1%, İran isə ən böyük azalma ilə 5% itirib.

Əcnəbi qonaqların sayının ən yüksək artım səviyyəsi Yaxın Şərq və Asiya ölkələrinə aiddir: 35% və 55%. Yaxın Şərq ölkələri arasında xüsusilə fərqlənənlər Səudiyyə Ərəbistanı (120%, 41 min), İsrail (161%, 40 min) və Küveyt (81%, 30 min), Asiya ölkələri arasında isə Pakistan (135%, 73 min) və Hindistan (175%, 39 min) olub.

Gürcüstandan gələnlərin sayı 72 min və ya 14% artaraq 610 min nəfər təşkil edib. Rusiyalı qonaqlarının sayı isə (878 min) 2017-ci ilə nisbətdə 3% artıb.

**Qrafik 1: 2017 və 2018-ci ilin yanvar-dekabr ayları ərzində 6 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2018-ci ilin dekabr ayında və 2018-ci ilin yanvar-dekabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2017-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2018 | | 2017 | |
|---|---|---|---|---|
| | Dek | Yan-Dek | Dek | Yan-Dek |
| Rusiya | 60 702 | 878 391 | 62 824 | 853 082 |
| Gürcüstan | 59 702 | 610 124 | 49 441 | 537 710 |
| Türkiyə | 24 281 | 291 259 | 26 406 | 301 553 |
| Asiya | 17 689 | 214 390 | 12 847 | 138 668 |
| Yaxın Şərq | 25 464 | 370 998 | 26 628 | 275 830 |
| İran | 13 586 | 240 483 | 21 895 | 362 597 |
| Şərqi Avropa | 6 183 | 99 144 | 6 319 | 96 807 |
| Qərbi Avropa | 5 261 | 96 299 | 5 367 | 90 291 |
| Amerika | 1 519 | 26 500 | 1 353 | 22 116 |
| Afrika | 969 | 8 629 | 625 | 6 924 |
| Digər | 616 | 8 672 | 385 | 6 420 |
| CƏMİ | | | | |